# Onlar Vətən uğrunda döyüşmüşlər

**Mübarizlər**

Qəhrəmanlıq ya vaxtla, ya da yaşla ölçülməz. İnsanın qanında Vətən və insan məfhumlarına qarşı sevgi, hörmət varsa qəhrəmanlıq yetişəcək və bariz şəkildə öz yerini tutacaq. İnsan uzun ömür yaşayar, öz peşəsi, əqidəsi ilə özünəməxsus bir həyat tərzi keçirər, ancaq cismən həyatı tərk edən kimi adı da yaddaşlardan silinər. Bir neçə il sonra isə onun varlığı belə xatırlanmaz. Ancaq qəhrəmanlıq tarixlərə iz salan bir missiyadır. Bu isə hər kəsə nəsib olmaz.

Tarix boyu müharibə və terror hadisələri olmuşdur. Həyat varsa, bunların olması da bildiyimiz kimi labüddür. Axı həyat mübarizədir. Bu mübarizəni isə mübarizlər aparırlar. Fakt odur ki, çox zaman mübarizlərə həyatda uzun ömür yaşamaq nəsib olmur. Ancaq yaşadıqları ömür əməlləri ilə yaddaşlara iz salır və bəzən də əbədilik qazanır.

Belə mübarizlər torpağı, vətəni, xalqı üçün yanaraq yaşayanlar və canını belə qurban verməyə hazır olanlardır. Başqasının malına göz dikmək, var-dövlətini yağmalamaq və torpaqlarından pay dilənmək mənfur xarakterli insanlara xas olan xüsusiyyətdir. Öz coğrafiyasına diqqət etdikcə böyük iddialara düşən və böyük, zəngin bir dövlət qurmaq iddiası ilə faciələr törətmək faşist xarakterli insanların toplumuna (onlara xalq demək istəməzdim) aiddir. Eyni iddialı hansısa bir dövlətin «quyruğu» olaraq öz mənfurluğunu nümayiş etdirən bir toplumdur Ermənistan. Əfsuslar olsun ki, bizə qonşudurlar. Elə qonşu ki, həmişə süfrəmizin artıq məhsulları ilə yaşamışlar. Bədxah niyyətlərini tülkü xəbisliyi ilə həyata keçirməyə çalışmış və ən ümdəsi başqa dövlətlərin öz siyasətini həyata keçirməsində əllərində bir vasitə olmuşlar. Elə bunun nəticəsi idi ki I Qarabağ müharibəsi baş verdi və torpaqlarımızın 20 faizi müəyyən səbəblər üzündən qarət olundu.

1994-cü ildə imzalanan atəşkəsə əsasən müharibə dayandırıldı. Fakt idi ki, ermənilər illərlə atəşkəsi pozdular. 30 ilə yaxın dövlətimiz və ölkə rəhbərliyi qan tökmədən, danışıqlar yolu ilə işğal altında olan torpaqlarımızı azad etmək üçün mübarizə apardı. Ancaq aparılan siyasət, danışıqların nəticəsi olan qərar və qətnamələr yalnız sənəd üzərində qaldı. Ermənilərin son illər sərhəd zonalarında atəşkəsi davamlı pozmaları, etdikləri terror hadisələri layiqincə susdurulsa da, dövlətimiz mübarizəni daha da gücləndirmək üçün xalqın istəyi ilə fərqli üsulu seçdi.

2020-ci ilin sentyabr ayının 27-də ölkə rəhbəri - Prezident və Ali Baş Komandan İlham Əliyev xalqa müraciət etdi və Qisas müharibəsinin - Vətən Müharibəsinin başlanmasını bildirdi. Xalq öz rəhbərini dəstəklədi və torpaqlarımızın işğaldan azad olunmasında döyüşlərdə iştirak etmək üçün könüllülər hərbi komissarlığa üz tutdular. Xüsusilə ölkə gəncləri qələbə əzmi ilə Vətənin müdafiəsinə qalxdılar; əsil mübariz kimi, vətənpərvər kimi!

44 günlük müharibədə Azərbaycanın bütün bölgələrindən vətənpərvər oğullar döyüşlərdə sidq-ürəklə iştirak etdilər.

3 minə yaxın şəhadət yolçusu, yüzlərlə «canlı» şəhidlər - sağlamlığını qurban verən igidlərimiz və vətən yolunda döyüşən əsgərlərimiz igidliyin bariz nümayəndələridir - onlar əsil mübarizlərdir; adları yaddaşlara iz salan mübarizlər!

**Qəbələ igidləri**

Vətən bölünməzdir, vətən bölgəsizdir. Vətən bütöv Azərbaycandır. Vətən uğrunda döyüşənlər bir ananın, atanın övladları kimidirlər. Onlar Ana Vətəni qorumaq üçün mübarizə aparırlar.

30 ildə məğlubiyyət kəlməsi eşidən hər kəs döyüşlərdə iştirak etməyə can atırdı. Qədim Qəbələ torpağının igidləri də general-mayor Polad Həşimovun davamçıları kimi 44 günlük müharibədə cəsarətlə döyüşdülər... Şəhidlərimiz oldu, yüzlərlə qazilərimiz öz sağlamlıqlarını itirdilər. Ancaq onlar qələbəyə inamlarını itirmədilər. Axı bilirdilər ki, qan tökmədən Qələbə, Zəfər qazanılmaz və Torpaq uğrunda ölən varsa vətənləşər!

**Qəbələnin sentyabr şəhidləri**

Qəbələli 3 şəhidimiz müharibənin ilk günlərində şəhadətə qovuşdular. Neçə-neçə döyüş, Şuşa sevinci, Zəfər paradı onlarsız baş verdi... Ancaq ruhları şad... Çünki qalib bir ölkənin qəhrəmanlarıdır onlar! Bu qalibiyyətdə isə onların payı əvəzsizdir. Qorxmazlığın, igidliyin böyüklüyüdür öndə getmək! Əgər onlar öndə gedib döyüşlərdə qəhrəmanlıq göstərməsəydilər, sonrakı döyüşlər qələbə ilə nəticələnə bilməzdi!..

Onlar 3 igid, 3 fədai idi - İsmayıl, Elşən, Hakim!



**İsmayıl Yaşar oğlu Qurbanov** - Qəbələ rayonunun Böyük Pirəli kəndində, 2001-ci il mart ayının 6-da dünyaya göz açmışdır. 2007 - 2019-cu illərdə Böyük Pirəli kənd orta məktəbini bitirmişdi. 2019-cu ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Torpaqlarımızın yağı düşməndən azad olunması onun hələ körpəlikdən arzusu olmuşdur. Elə bu arzu və istəklə də 44 günlük müharibənin başlandığı gündən döyüşlərə qatılmışdı. İsmayıl Füzuli və Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 28-də Füzuli rayonu istiqamətində döyüşlərdə şəhid olmuşdur.

İsmayıl Qurbanov Soltannuxa kənd qəbristanlığında dəfn olunmuşdur.

Ölümündən sonra «Vətən uğrunda», «Cəsur döyüşçü», «Füzulinin azad olunmasına görə», «Cəbrayılın azad olunmasına görə» medalları ilə təltif olunmuşdur.



**Hakim Səyyar oğlu Baxışov** - 2000-ci il dekabr ayının 13-də Qəbələnin Topbağ kəndində anadan olmuşdur. 2007 - 2018-ci illərdə Yenikənd kənd orta məktəbini bitirmişdir. O, 2019-cu ildə həqiqi hərbi xidmətə çağırılmış, 2020-ci ildən etibarən isə müddətdən artıq xidmətə davam etmişdir. O, sevdiyi hərbçi peşəsinə böyük şərəflə davam edirdi. Sentyabr ayında başlanan Vətən Müharibəsinin ilk günündən döyüşlərdə iştirak etmiş və qəhrəmanlıqla döyüşmüşdür. Ayın 22-də isə Göygöl rayonunda şəhid olmuşdur.

Ölümündən sonra Qəbələ şəhəri ərazisində küçəyə şəhidin adı verilmişdir. Həmçinin şəhidimiz «Vətən uğrunda», «Hərbi xidmətlərə görə», «Kəlbəcərin azad olunmasına görə» medalları, «Azərbaycan Bayrağı» ordeni ilə təltif olunmuşdur.



**Elşən Gündüz oğlu Dəmirli** - 1992-ci il oktyabr ayının 15 də rayonumuzun Nic qəsəbəsində anadan olmuşdur. 2004 - 2015-ci illərdə Nic qəsəbəsi 3 saylı orta məktəbdə orta təhsil almışdır. 2016 - 2018-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur. O, hərbçi sənətinə marağı ilə əlaqədar müddətdən artıq hərbi xidmətə başlamış, çalışqan və bacarıqlı hərbi qulluqçu kimi tanınmışdır. Müharibənin başlandığı gündən döyüşlərdə iştirak etmiş, qətiyyətlə və igidliklə döyüşmüşdür. Ölümdən belə qorxmayan, cəsarəti ilə xidmət etdiyi hissədə tanınan Elşən sentyabrın 29-da Tərtər - Ağdərə istiqamətində gedən qanlı döyüşlərdən birində şəhid olmuşdur.

Ölümündən sonra bir çox medallarla təltif olunan Elşən həmçinin «Vətən uğrunda», «Cəsur döyüşçü» medalları ilə də təltif olunmuşdur.

Qəhrəmanlıq, vətənpərvərlik kökə, qana bağlı bir vərdişdir. Azərbaycan xalqı tarixən qəhrəman bir xalqdır. Damarlarında azərbaycanlı qanı axan, əsil vətənpərvər oğullar tarixin qan yaddaşına öz igidliyi ilə adlarını həkk edirlər. Elə bu 3 igidimiz kimi! Onların timsalında Vətən uğrunda şəhid olan bütün baharömürlülər tarixinizi yenidən yazdılar! Allah məkanlarını cənnət etsin!

Onlar ürəklərdə bəşər tarixi boyunca əbədi yaşayacaqlar!

**BİBİXANIM.**

# Zəfər yolunun başlanğıcı

Rayon tarix-diyarşünaslıq muzeyinin təşkilatçılığı ilə 27 sentyabr Anım günü ilə əlaqədar "Zəfər yolunun başlanğıcı" adlı tədbir həyata keçirilib .

Tədbirdə Vahid Qəhrəmanov adına 1 saylı məktəbin müəllim və şagird kollektivi, Heydər Əliyev Mərkəzi, Mədəniyyət Mərkəzinin əməkdaşları və digər ictimaiyyət nümayəndələri iştirak ediblər. İlk olaraq şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir .

Tədbirdə iştirak edənlər bildiriblər ki, cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində şanlı tarix yazan oğullarımızın, şəhidlərimizin, ərazilərimizin döyüş yolu ağır olduğu qədər qürurvericidir. Mərd oğullarımızın misilsiz döyüş qabiliyyəti, Azərbaycan ordusunun qüdrəti yüksək səviyyədə vətənpərvərlik hisslərimiz, xalqımızın dəmir yumruq kimi sıx birləşdiyi dünyaya nümunə oldu .

Çıxışlarda bir daha vurğulanıb ki, qürurluyuq, çünki 27 sentyabr zəfər dastanımızın başlanğıcı, xalqın vəhdətinin, xalq - rəhbər birliyinin dünyaya nümayişi oldu.

**İlhamə SEYİDOVA,**
**"Qəbələ"nin ştatdankənar müxbiri.**

# Ümumtəhsil müəssisələrində "Bilik günü"

Yeni dərs ilinin başlaması ilə əlaqədar rayonun 68 ümumtəhsil məktəbində "Bilik günü" münasibətilə tədbirlər keçirilmişdir. Tədbirlərdə çıxış edənlər ölkəmizdə təhsil sahəsində həyata keçirilən məqsədyönlü layihələrdən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təhsilə göstərdiyi diqqət və qayğıdan söz açmış, "Bilik günü" münasibətilə məktəb kollektivlərini təbrik etmişlər. Çıxış edən müəllim, şagird və valideyinlər ölkəmizdə təhsilə göstərilən diqqət və qayğıya, yaradılan şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.



# Qürurlu tələbə adı

Ölkəmizdə müxtəlif ali və orta ixtisas məktəbləri fəaliyyət göstərir. Burada təhsil alan tələbələr gələcəyin müxtəlif ixtisaslar üzrə savadlı və bacarıqlı gənc kadrları kimi yetişdirilir. 2024-cü tədris ilində daha bir təhsil ocağı fəaliyyətə başlamışdır. Bu Qarabağ Universitetidir. Qarabağ Universiteti 1154 tələbə ilə Xankəndində təhsil prosesinə start götürmüşdür. Universitetə qəbul olan tələbələrin ortalama balı 470-dir.

Maraqlı faktdır ki, rayonumuzdan da bu yeni təhsil ocağında 21 nəfər tələbə təhsilə başlamışdır. Bu qədər ali təhsil ocaqlarından niyə məhz Qarabağ Universiteti?... Deməli, orta məktəblərdə və böyüdüyü ailələrdə vətənpərvərlik, mənəvi zənginlik, şəhid qanlarının axdığı Qarabağ torpağına olan sevgi bu yeniyetmə gəncləri məhz həmin Universiteti seçməyə seçməyə sövq etmişdir. O tələbələrdə həmçinin rayonumuzun fəxri "tarixçiləri" olan şəhidlərimizin, canlı şəhidlərə çevrilmiş, sağlamlıqlarını itirən qazilərimizin əqidəsi, iradəsi vardır. Bu məkanda təhsil alan tələbələrin hər biri ilə görüşmək mümkün olmasa da, onların bir neçəsi ilə əlaqə saxladıq.Onlardan biri ilə oxucularımızı tanış edirik. Əzizli Aysel Rasim qızı. O 2005-ci il avqustun 29-da Qəbələ şəhərində doğulmuşdur. 2022-ci ildə 5 saylı orta məktəbini bitirmişdir. Hələ kiçik yaşlarından ölkəmizin bütövlüyü, işğal altında olan ərazilərimizin azad olunması onun qəlbində olan ən ümdə arzusu idi. İbtidai siniflərdə oxuyarkən şəhər 3 saylı orta məktəbin müəllimi Könül Tağıyeva ona Vətən, Qarabağ sevgisini elə təlqin etmişdir ki... Məhz Qarabağda oxumaq və Zəfər tarixini yazanların ruhlarına daha yaxın olaraq məhz Xankəndində oxumaq Aysel üçün qürurvericidir.




2022-ci ildə Şəki Dövlət Regional kollecinin instrumental ifaçılıq (fortepiano) ixtisasını alan Aysel Qarabağ Universitetinin İncəsənət fakültəsinə qəbul olmuşdur. O, bu universitetin ilk tələbəsi olduğu üçün qürur duyur.

**Afət İSRAYILOVA,**
**Qəbələ şəhəri.**